# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

## Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflər


***İcraçılar:***

*Haqız rəqabətə qarşı mübarizə idarəsinin rəisi* — *Rövşən Cəfərli*

*Haqız rəqabətə qarşı mübarizə idarəsinin rəis müavini* — *Afiqə Bayramova*

*Haqız rəqabətə qarşı mübarizə idarəsinin baş mütəxəssisi* — *Elfirida Hacızadə*



**BAKI - 2025**

**Mündəricat**

GİRİŞ ........................................................................................ 3
1. Mövzunun aktuallığı ........................................................................ 5
2. Tədqiq olunmuş ölkələr və materiallar .................................................. 7
3. Tətbiq üçün məqsədəmüvafiq hesab edilən müddəa və istiqamətlər .................................. 10
4. Nəticə və təkliflər ........................................................................ 14
İstifadə olunmuş ədəbiyyat siyahısı ........................................................ 16

# GİRİŞ

Müasir dövrdə bazar iqtisadiyyatının sürətli inkişafı və qloballaşma prosesinin intensivləşməsi rəqabətin sağlam prinsiplər əsasında təşkili məsələsini aktuallaşdırmışdır. Bu xüsusilə audit xidmətləri kimi ictimai əhəmiyyət daşıyan peşəkar fəaliyyət sahəsində daha da ön plana çıxır. Audit sahəsində şəffaf və dürüst rəqabət mühitinin təmin olunmaması, haqsız rəqabət hallarının artması həm bu xidmətə olan ictimai etimadı sarsıda, həm də auditin keyfiyyətinə və auditor peşəsinin nüfuzuna mənfi təsir göstərə bilər. Belə hallar adətən auditorlar arasında qiymət dempinqi, etik davranış normalarının pozulması, qeyri-qanuni reklam fəaliyyəti, saxta audit rəylərinin verilməsi və digər neqativ hallarda özünü göstərir.

Qlobal iqtisadi sistemdə şəffaflıq və sağlam rəqabət prinsipləri dayanıqlı inkişafın əsas sütunlarından biridir. Audit fəaliyyəti sahəsində də bu prinsiplərin həyata keçirilməsi müvafiq nəzarət və tənzimləmə mexanizmlərinin gücləndirilməsini, haqsız rəqabətə qarşı effektiv mübarizə tədbirlərinin həyata keçirilməsini zəruri edir. Bu baxımdan, Azərbaycan Respublikası Auditorlar Palatası audit bazarında şəffaflığın artırılması, sağlam rəqabət mühitinin formalaşdırılması və beynəlxalq standartlara uyğun peşə davranış qaydalarının tətbiqi istiqamətində mühüm addımlar atmaqdadır. Bu baxımdan, beynəlxalq təcrübənin öyrənilməsi və ölkə reallıqları ilə uyğunlaşdırılmış şəkildə tətbiqi Palatanın fəaliyyətində prioritet istiqamətlərdən birini təşkil edir.

Bununla belə, praktikada müşahidə olunan neqativ meyllər — o cümlədən icazəsiz fəaliyyət, dempinq siyasəti, keyfiyyətsiz xidmət göstərilməsi və etik qaydalara riayət olunmaması — göstərir ki, mövcud hüquqi və institusional mexanizmlər haqsız rəqabətlə mübarizədə tam səmərəli nəticə vermir. Bu isə məsələni daha dərindən təhlil etməyə, müasir çağırışlara cavab verən yeni yanaşmalar formalaşdırmağa və beynəlxalq təcrübəyə əsaslanan kompleks tədbirlər həyata keçirməyə ehtiyac yaradır.

Bunu nəzərə alaraq, Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsi tərəfindən haqsız rəqabətə qarşı mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və həmin təcrübənin milli mühitə uyğun tətbiqi məqsədilə araşdırmalar aparılmışdır. Xüsusilə, 2009-cu ilin iyun ayında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Rəqabət Komitəsinin (Rəqabət və Tənzimləmə üzrə İşçi Qrupu №2) təşkil etdiyi **"Audit və Əlaqəli Peşələrdə Rəqabət və Tənzimləmə"** mövzusunda keçirilmiş Dəyirmi Masada təqdim olunmuş, **13 ölkənin** audit sahəsində haqsız rəqabətə dair təcrübələrini əhatə edən **308 səhifəlik** analitik vəsait idarə tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş, təhlil olunmuş və yerli şəraitlə müqayisəli şəkildə qiymətləndirilmişdir.

Hazırkı sənəddə OECD-nin təqdim etdiyi materiallar əsasında bir sıra xarici ölkələrin, o cümlədən Fransa, Macarıstan, Avropa İttifaqı ölkələri və ABŞ-ın bu sahədəki təcrübələri araşdırılmış, bu təcrübələrin Azərbaycan reallıqları ilə uyğun gələn məqamları müəyyən edilmiş və tətbiq imkanları dəyərləndirilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatası bu kimi analitik materiallar vasitəsilə tənzimləyici və nəzarət funksiyalarını gücləndirməklə yanaşı, həm də audit ictimaiyyətində haqsız rəqabətin fəsadları barədə maarifləndirməni artırmağı və sağlam rəqabət prinsiplərinin daha geniş şəkildə tətbiqini təşviq etməyi hədəfləyir.

Məqsəd – audit sahəsində haqsız rəqabət hallarının aradan qaldırılması, şəffaf və peşəkar fəaliyyət mühitinin təşviqi və bu istiqamətdə tövsiyə xarakterli təkliflərin formalaşdırılmasıdır.

Bu tədqiqatın məqsədi beynəlxalq təcrübəni öyrənərək, Azərbaycanda haqsız rəqabətə qarşı mübarizə sahəsində həm hüquqi, həm də institusional mexanizmlərin təkmilləşdirilməsinin mümkün istiqamətlərini müəyyən etməkdir. Materialda yer alan geniş təhlil və müqayisələr, ölkəmizin audit bazarının inkişafı üçün zəruri olan addımların atılması və beynəlxalq standartlara uyğun sistemlərin tətbiqinə dair tövsiyələrin hazırlanmasına xidmət edir.

## 1. Mövzunun aktuallığı

Audit fəaliyyəti bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olaraq, maliyyə hesabatlarının düzgünlüyünün və şəffaflığının təmin edilməsində mühüm rol oynayır. Bu sahənin keyfiyyətli və müstəqil şəkildə həyata keçirilməsi isə birbaşa olaraq bu sahədə fəaliyyət göstərən subyektlər arasında rəqabət mühitinin sağlamlığından asılıdır. Lakin təəssüflə qeyd edilməlidir ki, son dövrlər auditor xidmətləri bazarında müşahidə olunan neqativ hallar – xüsusilə qiymət dempinqi, qeyri-etik davranışlar və qeyri-qanuni təşviq üsullarının tətbiqi – audit peşəsinin nüfuzuna və ictimai etimada ciddi zərbə vurur.

Azərbaycan Respublikasında “Auditor xidməti haqqında” Qanun və digər normativ sənədlərlə bu sahə tənzimlənsə də, bəzi hallarda qanunvericilikdəki boşluqlar və nəzarət mexanizmlərinin yetərsizliyi nəticəsində haqsız rəqabət halları baş verir. Bu isə həm audit təşkilatları arasında sağlam rəqabətin pozulmasına, həm də xidmətlərin keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Xüsusilə, daha aşağı qiymətə audit xidməti təklif edən və bu zaman auditin beynəlxalq standartlara uyğun aparılması tələblərinə riayət etməyən subyektlər daha vicdanlı və peşəkar auditorlarla bərabər bazarda yer tutur. Bu isə öz növbəsində, auditin mahiyyətinə və məqsədinə ziddir.

Haqsız rəqabət yalnız audit təşkilatları və sərbəst auditorlar arasında münasibətlərə deyil, həm də müştəri-auditor münasibətlərinə təsir göstərir. Müştərilər bəzən yalnız aşağı qiymətə üstünlük verərək peşəkar və obyektiv auditi deyil, formal audit rəylərini seçirlər. Belə yanaşmalar son nəticədə maliyyə hesabatlarının düzgünlüyünə, investorlara və digər maraqlı tərəflərə verilən siqnallara mənfi təsir edir.

Bu problemlərin fonunda haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi, tənzimləyici mexanizmlərin təkmilləşdirilməsi və müasir, beynəlxalq təcrübəyə əsaslanan yanaşmaların tətbiqi olduqca aktualdır. Fransa, Macarıstan, Yunanıstan, İtaliya, Türkiyə, Litva, Birləşmiş Krallıq və ABŞ kimi qabaqcıl ölkələrdə bu sahədə tətbiq edilən hüquqi və institusional tədbirlər

göstərir ki, yalnız normativ bazanın mövcudluğu kifayət etmir; effektiv nəzarət və monitorinq sistemləri, etik davranış kodekslərinin icrası və audit subyektləri üçün ciddi məsuliyyət tədbirləri bu problemin qarşısının alınmasında həlledici rol oynayır.

Eyni zamanda, inkişaf etmiş ölkələrdə haqsız rəqabətə qarşı mübarizə yalnız cəza tədbirləri ilə deyil, həm də bazar iştirakçılarının peşəkarlığının artırılması, şəffaflıq hesabatlarının təqdim olunması, rotasiya, co-audit, sığorta kimi mexanizmlərin tətbiqi vasitəsilə həyata keçirilir. Bu yanaşmalar audit fəaliyyətinin nüfuzunu və keyfiyyətini qorumaqla yanaşı, auditorlar arasında haqlı və ədalətli rəqabəti də təmin edir.

Azərbaycanın audit sahəsində bu təcrübələrdən yararlanaraq milli qanunvericiliyə uyğun modellər hazırlaması və tətbiqi, haqsız rəqabət hallarının azalmasına, xidmət keyfiyyətinin yüksəlməsinə və nəticə etibarilə auditor xidmətləri bazarının sağlam inkişafına zəmin yarada bilər. Bu səbəbdən haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və məqsədyönlü tətbiqi gündəmdə olan, strateji əhəmiyyətli bir məsələ kimi qiymətləndirilməlidir. Bu materialdan əldə olunan məlumatlar 2026 və sonrakı illər üzrə iş planında öz əksini tapacaq.

## 2. Tədqiq olunmuş ölkələr və materiallar

Bu tədqiqatda haqsız rəqabətə qarşı mübarizə sahəsində müxtəlif xarici ölkələrin təcrübələri öyrənilməsi əsasında bu ölkələrdə tətbiq edilən müvafiq hüquqi və institusional tədbirlərin Azərbaycanın audit bazarına tətbiqi tədqiq olunmuşdur. Aşağıda təhlil edilmiş ölkələr və bu ölkələrin haqsız rəqabətə qarşı mübarizə sahəsində tətbiq etdikləri tədbirlər barədə məlumatlar təqdim olunmuşdur.

Avropa İttifaqı ölkələrində auditor fəaliyyətinin tənzimlənməsi eyni zamanda çoxsaylı direktivlər və qaydalar vasitəsilə həyata keçirilir. **Burada auditorların rotasiya müddəti, birgə auditor təyinatı (co-audit), etik kodekslər və audit xidmətləri üzrə şəffaflıq hesabatları tətbiq edilir. Aİ ölkələri arasında auditorlara dair qanunvericilik və tənzimləmə mexanizmləri bir qədər fərqlənsə də, ümumi yanaşma haqsız rəqabətin qarşısının alınmasına yönəlmişdir. Auditorlar üçün şəffaflıq hesabatlarının təqdim edilməsi, etik reklam məhdudiyyətləri və xidmət keyfiyyətinin tənzimlənməsi geniş yayılmış praktikadır.**

**1. Fransa**

Fransa, audit fəaliyyətini tənzimləyən inkişaf etmiş və etibarlı bir sistemə malikdir. Burada auditorların müstəqilliyi və fəaliyyətinin şəffaflığına xüsusi önəm verilir. Fransa qanunvericiliyi auditorlara yalnız qanuni təyinatlı şirkətlərdə və müəyyən edilmiş fəaliyyətlərdə audit aparmaq hüququ verir. Fransa qanunvericiliyinə əsasən, **auditorlar yalnız peşəkar etik standartlara uyğun fəaliyyət göstərməli və reklam, qiymət tənzimləməsi kimi məsələlərə ciddi nəzarət edilərək, haqsız rəqabət hallarının qarşısı alınır. Auditorların fəaliyyətlərinin şəffaflığı üçün illik şəffaflıq hesabatı təqdim edilməsi tələb olunur.**

**2. Macarıstan**

Macarıstanda auditor xidmətləri bazarı yüksək tənzimlənmiş və ciddi hüquqi nəzarətə tabedir. Macarıstanda, yalnız müəyyən lisenziyalı auditorlar və auditor firmaları qanuni auditor xidmətləri göstərə bilər. Bununla yanaşı, burada

**auditorların reklam fəaliyyətlərinə məhdudiyyətlər tətbiq edilir və qiymət tənzimləmələri ilə bağlı qaydalar mövcuddur.** Macarıstanın tənzimləmə orqanları, auditorların müstəqilliyinin qorunmasına yönəlmiş ciddi tədbirlər görür və **haqsız rəqabətin qarşısını almaq məqsədilə mütəmadi olaraq audit keyfiyyətinə nəzarət təşkil edir.**

**3. ABŞ**

ABŞ-da auditor fəaliyyəti son dərəcə tənzimlənmişdir və burada auditorların fəaliyyətləri bir sıra peşəkar və etik qaydalarla tənzimlənir. ABŞ-da auditorlara dair tənzimləmə, əsasən dövlət tənzimləyici orqanları (PCAOB) tərəfindən həyata keçirilir və **auditorların müstəqilliyi ilə bağlı ciddi nəzarət mexanizmləri mövcuddur.** ABŞ-da haqsız rəqabətə qarşı mübarizə mexanizmləri müxtəlif formalarda tətbiq edilir, o cümlədən **qiymət tənzimləmələri və reklam qadağaları mövcuddur.** Bununla yanaşı, **auditor firmalarının müvafiq məsuliyyət sığortası etməsi də tələb olunur.**

**4. Yunanıstan**

Yunanıstanda auditorların müstəqilliyinin təmin edilməsi və etik qaydaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Yunanıstanda auditorlar üçün peşəkar lisenziyaların verilməsi və onların fəaliyyətlərinin tənzimlənməsi ciddi qaydalarla həyata keçirilir. **Auditorlar yalnız lisenziya aldıqları müvafiq sahələrdə fəaliyyət göstərə bilərlər və haqsız rəqabətin qarşısını almaq məqsədilə reklam və qiymət təyini ilə bağlı qadağalar mövcuddur. Auditorların və mühasiblərin fəaliyyətlərinin şəffaf olması üçün müvafiq hesabatların təqdim edilməsi tələb olunur.**

**5. Birləşmiş Krallıq**

Birləşmiş Krallıqda auditor fəaliyyətinə dair tənzimləmə beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilir. Burada auditorların müstəqilliyi, şəffaflıq və etik kodekslərə ciddi riayət edilməkdədir. **Birləşmiş Krallıqda haqsız rəqabətin qarşısının alınması məqsədilə qiymət tənzimləmələri və reklamla bağlı məhdudiyyətlər tətbiq edilir.** Eyni zamanda, **auditorların**

**fəaliyyətində şəffaflıq hesabatlarının təqdim edilməsi və müstəqilliyin qorunması prinsiplərinə xüsusi diqqət yetirilir.**

**6**. **İtaliya**

İtaliyada “Dottore Commercialista” və “Esperto Contabile” kimi peşəkar adların istifadəsi, auditorluq fəaliyyətlərinin tənzimlənməsi və audit ilə digər xidmət sahələrinin bir-birindən ayrılması məsələləri işıqlandırılmışdır. **“Dottore Commercialista”** və **“Esperto Contabile”**. Hər iki titul peşəkar mühasibat, vergi məsləhətçiliyi və audit xidmətləri ilə məşğul olan şəxslərə verilir, lakin aralarında bəzi funksional və ixtisas fərqləri mövcuddur.

- **Dottore Commercialista** – bu titul İtaliyada universitetin müvafiq ixtisası üzrə magistr səviyyəsində təhsil almış və dövlət imtahanından keçmiş şəxslərə verilir. Bu şəxslər yüksək səviyyəli mühasibat uçotu, maliyyə analizləri, hüquqi və vergi məsləhətləri, eyni zamanda audit xidmətləri göstərmək səlahiyyətinə malikdirlər.
- **Esperto Contabile** – bu ad isə əsasən bakalavr səviyyəsində müvafiq təhsil almış və müəyyən praktiki tələbləri yerinə yetirmiş şəxslərə verilir. Onların fəaliyyəti daha çox gündəlik mühasibat xidmətləri və sadələşdirilmiş maliyyə müşavirliyi ilə məhdudlaşır.

İtaliyanın praktikası, xüsusilə peşəkar xidmətlərin göstərilməsindəki elastiklik və hüquqi tənzimləmələrin rolu ilə önə çıxır.

## 3. Tətbiq üçün məqsədəmüvafiq hesab edilən müddəa və istiqamətlər

Azərbaycan Respublikasında audit xidmətləri sahəsində haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi məqsədilə aparılmış beynəlxalq təcrübə təhlili bir sıra praktik və hüquqi mexanizmlərin ölkə şəraitində tətbiqinin mümkünlüyünü ortaya qoyur.

Əldə edilən nəticələrə əsasən aşağıdakı müddəa və istiqamətlər tətbiq üçün məqsədəmüvafiq hesab edilir:

1. Şəffaflıq hesabatlarının təqdim olunması (Fransa təcrübəsi)

- İctimai əhəmiyyətli qurumları audit edən auditorlar tərəfindən illik şəffaflıq hesabatlarının hazırlanması və Auditorlar Palatasına təqdim edilməsi.
- Hesabatlarda hüquqi struktur, mülkiyyət forması, gəlir strukturu (audit və qeyri-audit gəlirləri), daxili keyfiyyətə nəzarət sistemi və etik siyasətlər əks olunmalıdır.

Faydası: Rəqabət şəraitində şəffaflığın təmin olunması və etimadın güclənməsi.

2. Auditorların fəaliyyət müddətinin rotasiya prinsipi ilə məhdudlaşdırılması (Avropa İttifaqı və Fransa təcrübəsi)

- Auditor və ya auditor təşkilatının eyni müştəriyə fasiləsiz audit xidməti göstərmə müddəti maksimum 7 il müəyyən edilməli, daha sonra 2-3 il fasilə tələb olunmalıdır.

Faydası: Auditorun müstəqilliyi və obyektivliyinin təmin olunması.

3.Birgə audit (co-audit) modelinin tətbiqi (Fransa modeli)

- İctimai əhəmiyyətli müəssisələrin auditinin eyni zamanda iki müstəqil auditor və ya auditor təşkilatı tərəfindən həyata keçirilməsi təşviq edilməlidir.

Faydası: Auditor rəylərinin obyektivliyinin artırılması, audit keyfiyyətinə ikitərəfli nəzarət.

4. Audit və məsləhət xidmətlərinin ayrılması (ABŞ və Avropa təcrübəsi)

- Eyni hüquqi şəxsə eyni vaxtda həm audit, həm də vergi, hüquq və ya digər məsləhət xidmətlərinin göstərilməsi qadağan edilməlidir.

Faydası: Maraq toqquşmasının qarşısının alınması, auditorun tərəfsizliyinin qorunması.

5. Auditorlar üçün etik çərçivədə reklam fəaliyyətinin leqallaşdırılması (Macarıstan və ABŞ təcrübəsi)

- Auditorlara yalnız etik normalar çərçivəsində, qiymət və xidmətlərə dair informativ və şəffaf reklam imkanları tanınmalıdır.

Faydası: Xidmətlərin rəqabətli və məlumatlı şəkildə təqdim edilməsi, bazarda düzgün məlumat dövriyyəsinin təşviqi.

6. Audit saatlarının və minimum xidmət haqlarının normativləşdirilməsi (Fransa təcrübəsi)

- Audit fəaliyyətinin minimum vaxt və resurs sərfiyyatına dair normativlər müəyyən edilməli, xidmətin real dəyərinə uyğun qiymət formalaşması təşviq olunmalıdır.

Faydası: Keyfiyyətsiz və ucuz audit xidmətlərinin qarşısının alınması.

7. Etik davranış normalarının konkretləşdirilməsi

- Etika Məcəlləsinə auditin mərhələlərinə uyğun konkret davranış qaydaları və etik risklər əlavə edilsin.

Faydası: Auditor üçün yol xəritəsi formalaşır, subyektiv qiymətləndirmə azalır və etik pozuntuların qarşısı alınır.

8. Auditorun “etik bəyannamə” təqdim etməsi

- Auditorlar auditə başlamazdan əvvəl etik əlaqələrə dair yazılı bəyanat təqdim etməlidirlər.

Faydası: Maraq toqquşmasının qarşısı alınır, auditorun müstəqilliyi və obyektivliyi təmin olunur.

9. Etik pozuntuya görə müştərinin məlumatlandırılması

- Auditor etik pozuntuya görə cəzalandıqda müştərilərinə bu barədə məlumat vermək öhdəliyi daşıyır.

Faydası: Müştərinin riskləri düzgün qiymətləndirməsi təmin olunur, etimad əsasında seçim etmək imkanı yaranır.

10. Etik pozuntulara görə yenidən imtahan və təlim

- Ciddi pozuntu hallarında auditorlar etik və peşə modullarından yenidən imtahan versinlər.

Faydası: Peşəkar səviyyənin artırılması və auditorun yenidən ictimai etimad qazanması üçün imkan yaranır.

11. Əlavə peşə sığortası və maliyyə zəmanəti tələbi

- Etik pozuntuya yol verən auditor fəaliyyətə davam etmək üçün əlavə sığorta/zəmanət təqdim etməlidir.

Faydası: Müştərilərin potensial zərərləri kompensasiya olunur, məsuliyyət artırılır.

12. Minimum audit qiymət standartlarının tətbiqi

- Fərqli müəssisə tipləri üzrə minimum qiymət hədləri müəyyən edilsin.

Faydası: Dempinqin qarşısı alınır, ucuz və keyfiyyətsiz audit xidmətləri bazardan sıxışdırılır.

13. Audit iş saatı və resurs sərfiyyatının normativləşdirilməsi

- Audit üçün minimal iş saatı və insan resursları üzrə normativlər hazırlanmalıdır.

Faydası: Formallıqdan uzaq, real iş yükünə əsaslanan keyfiyyətli audit təmin olunur.

14. Qiymət təkliflərinin əsaslandırılması və şəffaflığı

- Qiymət təklifləri xidmətin həcmi və mərhələlərinə əsasən ətraflı izah olunmalıdır.

Faydası: Müştəri real dəyəri anlayır, audit şirkətləri arasında ədalətli rəqabət yaranır.

15. Audit qiymətləri üzrə monitorinq və reyestr

- Təklif: Auditorlar tərəfindən təqdim edilən müqavilə qiymətləri və xidmət həcmləri elektron sistemdə qeydiyyata alınsın.

Faydası: Qiymətlərin bazar səviyyəsində olub-olmaması monitorinq olunur, normadan kənar təkliflər aşkar edilir.

16. Qiymət dempinqinə qarşı sanksiya mexanizmi

- Minimum qiymətdən aşağı audit xidməti göstərənlər əsaslandırma verməli və zərurət olduqda sanksiyaya məruz qalmalıdır.

Faydası: Qiymət əsasında haqsız rəqabətə qarşı sistemli nəzarət və intizam tədbirləri təmin olunur.

Bu müddəa və istiqamətlər, beynəlxalq praktikanın uğurlu elementlərinin Azərbaycan şəraitinə uyğunlaşdırılması və haqsız rəqabət hallarının sistemli şəkildə azaldılması baxımından məqsədəuyğundur. Onların mərhələli şəkildə milli qanunvericilikdə və tətbiqetmədə əks olunması audit xidmətlərinin keyfiyyətini artırmaqla yanaşı, bazarda sağlam rəqabət mühitini formalaşdırmağa xidmət edəcəkdir.

## 4. Nəticə və təkliflər

**1.Fəaliyyət sahəsinin bilik və səriştə ilə uzlaşdırılması (səlahiyyətlərin dəqiqləşdirilməsi)**

***Təsviri:*** Auditor yalnız müəyyən sahələrdə və ya müəyyən dərəcəli müəssisələrdə audit aparmaq hüququnu saxlayır (məsələn, iri dövlət müəssisələrində yox).

***Əsaslandırma:*** Xətanın ağırlığına uyğun olaraq auditorun yalnız aşağı riskli sahələrdə fəaliyyətinə icazə verilir. Bu həm cəza, həm də nəzarət vasitəsidir.

**2.Müştərilərin xəbərdar edilməsi öhdəliyi**

***Təsviri:*** Auditor etik və ya texniki pozuntuya görə cəzalandırıldıqda, fəaliyyətdə olduğu müəssisələri bu barədə yazılı şəkildə məlumatlandırmalıdır.

***Əsaslandırma:*** Şəffaflıq artır və müştəri riskləri daha yaxşı qiymətləndirə bilir. Bu tədbir ictimai maraqların qorunmasına xidmət edir.

**3.Yenidən imtahan vermə öhdəliyi**

***Təsviri**:* Peşə və etik normalara ciddi pozuntu halında auditor müəyyən ixtisas modullarından yenidən imtahan verir.

***Əsaslandırma:*** Peşəkar hazırlıq səviyyəsinin zəif olduğu hallarda bu tədbir islahedici maiyyət daşıyır.

**4.Əlavə sığorta və zəmanət tələbi**

***Təsvir**:* Pozuntuya yol verən auditor fəaliyyətə davam etmək üçün əlavə peşə sığortası və maliyyə zəmanəti təqdim etməlidir.

***Məqsəd:*** Potensial zərərlərin qarşılanması və məsuliyyətin artırılması.

**5.Auditor firmaları üçün şəffaflıq hesabatlarının təqdim edilməsi (Fransa təcrübəsi əsasında)**

***Təklif:*** İctimai əhəmiyyətli qurumları audit edən auditor firmalarının illik şəffaflıq hesabatı təqdim etməsi məcburi edilsin. Hesabatda hüquqi və təşkilati quruluş, mülkiyyət strukturu, gəlir mənbələri, daxili keyfiyyətə nəzarət sistemi, müstəqillik və təlim siyasətləri öz əksini tapsın.

***Faydası:*** İctimai etimadın güclənməsi, maraq toqquşmalarının minimuma endirilməsi.

**6. Auditorların təyinində və dəyişdirilməsində rotasiya müddətinin tətbiqi (Avropa İttifaqı və Fransa təcrübəsi)**

***Təklif:*** Auditor və ya auditor təşkilatı eyni müştəriyə maksimum 7 il xidmət göstərə bilsin, daha sonra 3 il fasilə verilməlidir.

***Faydası:*** Müstəqillik və obyektivlik təmin olunur.

**7. Birgə auditor təyinatı modeli (Fransa modeli)**

***Təklif:*** İctimai əhəmiyyətli qurumlar üçün iki fərqli auditorun birgə audit aparması qanunvericiliyə daxil edilsin.

***Faydası:*** Rəylərin obyektivliyi artır, kiçik firmaların bazara çıxışı genişlənir.

**8. Auditorların reklam imkanlarının genişləndirilməsi (ABŞ və Macarıstan təcrübəsi)**

***Təklif:*** Etik çərçivədə auditorlara reklam, ictimai çıxış və məlumatlandırıcı tədbirlər keçirməyə icazə verilsin.

***Faydası**:* Rəqabət artır, ictimai məlumatlanma təmin olunur.

**9. Audit saatları üzrə normativlərin müəyyən olunması (Fransa modeli)**

***Təklif:*** Audit fəaliyyəti üçün minimum iş saatı və buna uyğun ödəniş normativləri müəyyən edilsin.

***Faydası:*** Keyfiyyət və ədalətli qiymətləndirmə təmin olunur.

**10. Audit və məsləhət xidmətlərinin ayrılması**

*Təklif:* Eyni hüquqi şəxsə həm audit, həm də məsləhət xidmətinin eyni vaxtda göstərilməsi qadağan edilsin.

***Faydası:*** Maraq toqquşmalarının qarşısı alınır.

**11. Davamlı peşəkar təlimin məcburiliyi**

***Təklif:*** Sertifikatlı auditorlar üçün illik minimum təlim saatı tələbi qanunvericiliyə daxil edilsin.

***Faydası:*** Peşəkar biliklərin yenilənməsi və inkişafı.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1.Competition and Regulation in Auditing and Related Professions – 2009 - Audit və Əlaqədar Peşələrdə Rəqabət və Tənzimləmə – 2009

https://www.icjp.pt/sites/default/files/cursos/documentacao/compet-regulation-audit-oecd44762253.pdf

2. Avropa Komissiyası. Directive 2014/56/EU və Regulation (EU) No 537/2014 – Auditorların fəaliyyətinə dair tələblər və tənzimləmə çərçivəsi.

3. International Ethics Standards Board for Accountants (IESBA) – Code of Ethics for Professional Accountants* (2022 Edition).

4. Public Company Accounting Oversight Board (PCAOB, ABŞ). Auditor Independence and Ethical Responsibilities, Washington, 2020.

5. Azərbaycan Respublikasının "Audit fəaliyyəti haqqında" Qanunu, 1994.

6. Azərbaycan respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası-2021-2030-cu illər

7. Haqsız rəqabətlə mübarizədə "Qütb ulduzumuz", 2022

8. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş «RƏQABƏT – DAYANIQLI İNKİŞAFIN MÜHÜM AMİLİ KİMİ» beynəlxalq elmi-praktik konfransın materialları, 2023

9. Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu (2022-2023-cü illər), Bakı-2023